***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, dünyada dərin iqtisadi və siyasi böhran davam edir. Bunun müxtəlif səbəbləri var və ən əvvəl, əlbəttə, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsini göstərmək lazımdır. Belə bir cəhəti də böyük fərəh və qürur hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan əvvəlki böhranlı illərdə olduğu kimi, qlobal maliyyə böhranından üzüağ çıxmaq üçün hərtərəfli imkanlara, geniş resurslara malikdir. Bu, ilk növbədə ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış islahatlar və uzunmüddətli inkişaf strategiyası ilə bağlıdır.***

***Ötən illərdə bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev sahibkarlığın inkişafı yönündə güclü siyasi iradə nümayiş etdirmişdir. Bu da təsadüfi deyil. Son illər Azərbaycanın sürətli iqtisadi inkişafında özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Hazırda yerlərdə Prezidentin sahibkarlığın inkişafı ilə bağlı verdiyi son göstəriş, sərəncam və tövsiyələrə uyğun olaraq geniş tədbirlər planı işlənib hazırlanır, əlavə imkan və ehtiyat mənbələri aşkara çıxarılır, konkret vəzifələr müəyyənləşdirilir.***

***Məsələn, təkcə Bərdə rayonunda son günlər bu istiqamətdə dörd ümumrayon müşavirəsi keçirilmiş, ayrı-ayrı sahələrdə fəaliyyət göstərən sahibkarlarla fikir mübadiləsi aparılmış, mövcud vəziyyət geniş təhlil edilmişdir. “Dəyirmi masa” arxasında söhbət edən sahibkarlar da iqtisadiyyatın müxtəlif sahələrində çalışırlar. Ancaq onların hamısının düşüncələri, fikir və məqsədləri eyni idi: ölkə Prezidentinin diqqət və qayğısı sahibkarları daha yaxşı işləməyə, respublikamızın sosial-iqtisadi inkişafına mühüm töhfələr verməyə ruhlandırmışdır. Aşağıda müxbirimizin “dəyirmi masa”dan hazırladığı qeydləri dərc edirik.***

# Bərdə sahibkarları: böyük uğurlar, yeni vəzifələr, maraqlı təşəbbüslər

## *“Xalq qəzeti” redaksiyası Bərdə Rayon İcra Hakimiyyəti ilə birlikdə “Dəyirmi masa” arxasında söhbət keçirmişdir*



**İlham Məmmədov – rayon icra hakimiyyəti başçısının müavini:**

– Son günlər artıq dördüncü dəfədir ki, sizinlə görüşürük. Ancaq budəfəki söhbətimizin mövzusu daha genişdir. Bizi daha çox yeni hədəflər, görüləcək işlərin miqyası, bu istiqamətdə rastlaşdığımız çətinlik və problemlər maraqlandırır. Yeri gəlmişkən, onu da deyim ki, respublika Prezidenti İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqi bir daha sübut etdi ki, bu sahədə ciddi siyasi iradə nümayiş etdirən ölkə başçısı hər an sahibkarların yanındadır.

Son illər rayonumuzda bu istiqamətdə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərə və əldə edilmiş konkret nəticələrə aid bir neçə misal göstərmək istəyirəm. Hazırda istehsal olunan məhsulun 97 faizi özəl sektorun payına düşür. Təkcə ötən il sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 4,3 faiz artaraq 9,7 min nəfərə çatmışdır. İri fermer təsərrüfatının yaradılması, sənaye məhəllələrinin təşkil edilməsi fəaliyyətimizin prioritet istiqamətidir. Türkmən kəndində 500 başlıq heyvandarlıq kompleksinin tikintisinin birinci mərhələsi başa çatdırılmış, kompleksə 327 baş cins heyvan gətirilmişdir. Mehdili kəndində yeni yem istehsalı müəssisəsi tikilib istifadəyə verilmişdir. Kredit təşkilatları tərəfindən il ərzində 564 sahibkara 9,6 milyon manat kredit verilərək 685 yeni iş yeri yaradılmışdır. Ümumiyyətlə, Dövlət Proqramı qəbul olunandan indiyədək 28754 yeni iş yeri yaradılmışdır ki, bunun da 14383-ü daimidir.

Prezident İlham Əliyev demişdir: “Ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır”. Bir sözlə, qarşımızda yeni üfüqlər açılmışdır. Görüləcək işlər məlum, hədəflər aydındır. İndi hər kəsdən güclü vətənpərvərlik duyğusu, bu böhranlı illərdə ölkə iqtisadiyyatının daha sürətli inkişafına yönəldilmiş yaradıcı və təşəbbüskar fəaliyyət tələb olunur.

**Vahid Rzayev – “Qarabağ” Aqrar-Sənaye Kompleksinin baş direktoru:**

– Bildiyiniz kimi, ölkə Prezidentinin ardıcıl və qətiyyətli iqtisadi siyasətinə arxalanaraq Mehdili kəndində 5 sahibkarlıq subyekti Aqrar-Sənaye Kompleksi yaratmışıq. Kompleksin tərkibində Almaniya, İngiltərə və Türkiyə şirkətlərinin müasir texnologiyalara əsaslanan 5 min tonluq logistik mərkəz, 4200 başlıq ətlik və südlük istiqamətli heyvandarlıq kompleksləri, illik 5,4 min ton istehsal gücü olan ət kəsimi və emalı fabriki, illik istehsal gücü 46 min ton olan qüvvəli yem zavodu inşa etmişik. Əlbəttə, bu iri layihələr heç də öz-özünə yaranmamışdır. Mən burada İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun, “Aqrolizinq” ASC-nin adlarını böyük məmnuniyyətlə çəkmək istəyirəm. Məhz onların yaxından köməyi ilə cins heyvan və kənd təsərrüfatı texnikası almışıq.

Onu da bildirim ki, layihələrin icrası nəticəsində 300 yeni iş yeri açılmışdır. Hazırda kompleksdə ildə 1000 tona yaxın ət, 17 min ton süd istehsal olunur. Sözsüz ki, bu son hədd deyil. Sahibkarlığa göstərilən dövlət qayğısı, rayonda sahibkarlıq üçün yaradılmış münbit şərait və ötən dövrdə topladığımız təcrübə belə deməyə əsas verir ki, istehsal fəaliyyətimizi artırmaq və yerli ərzaq məhsullarına olan tələbatı daha dolğun ödəmək üçün geniş imkanlarımız var. Bu məqsədlə yaxşı olar ki, Dövlət Ehtiyat Fondu torpaqlarından əlavə torpaq sahəsi ayrılsın. Əgər bu məsələ həll olunarsa, onda həmin torpaqda müxtəlif meyvə, tərəvəz və yem bitkilərinin əkilməsini təmin edərik. Bu isə istehsal imkanlarımızı daha da artırmağa, heyvandarlıq kompleksinin yemə olan ehtiyacını ödəməyə, istehsal olunan məhsulların maya dəyərinin aşağı düşməsinə, qiymətlərin sabitləşməsinə və beləliklə də, ixrac imkanlarının yaranmasına imkan verərdi.

**Məhərrəm Şəfiyev – “Bərdə – Çörək” ASC-nin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru:**

– Prezident İlham Əliyev ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məsələlərindən danışarkən xüsusi vurğulamışdır: “Mən dəfələrlə demişəm, elə işləməliyik ki, sanki bizdə neft-qaz resursları yoxdur. Əslində, indi neftin qiyməti belə vəziyyətə gətirib çıxarıb ki, elə bil doğrudan da belədir”. Bu, əslində hər bir məmura, sahibkara, bir sözlə, işindən, vəzifəsindən asılı olmayaraq hər bir ölkə vətəndaşına yönəlmiş ən ciddi və təsirli çağırışdır. Deməli, əslində biz sahibkarların üzərinə düşən vəzifələr aydındır. Elə isə mümkün qədər onların icrasını sürətləndirməliyik.

Məlumat üçün deyim ki, Qarabağın ən böyük çörək istehsalı müəssisəsi olan “Bərdə – Çörək” ASC keçən əsrin 80-ci illərinin əvvəllərində xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilib istifadəyə verilib. “2008 – 2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”na uyğun olaraq “Bərdə – Çörək” ASC yenidən qurulub, müasir avadanlıqlarla təchiz edilib. Sutkalıq istehsal gücü 55 ton olan zavodda 3 növbəli iş rejimi tətbiq edilməklə gündəlik 10-12 ton çörək istehsal olunur. Müəssisə Bərdə və ətraf rayonların əhalisinin yüksək keyfiyyətli çörəklə təmin edilməsində mühüm rol oynayır.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsi ilə digər sahələrdə olduğu kimi, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində də mühüm addımlar atıldı. Torpaq islahatının aparılması və dövlət əmlakının özəlləşdirilməsi nəticəsində bazar iqtisadiyyatının əsasını təşkil edən azad sahibkarlıq bərqərar olundu. Kənd təsərrüfatının bütün sahələrində gedən tənəzzül iqtisadi artımla əvəzləndi.

Mən ümummilli lider Heydər Əliyevin 2002-ci ildə sahibkarlarla görüşünün iştirakçısı olmuşam. Dahi rəhbərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də onlarla müntəzəm görüşlər keçirir, sahibkarlığın inkişafı istiqamətində tövsiyə və tapşırıqlar verir. Manatın devalvasiyasından sonra dövlətimizin başçısının tapşırığına əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışının əlavə dəyər vergisindən azad olunması bu sahədə qiymətin aşağı düşməsi ilə nəticələndi. Çörəyin maya dəyərinin aşağı düşməsi həm sahibkarlara stimul yaradır, həm də əhalinin sosial rifahının yaxşılaşmasına öz töhfəsini verir. İndi zavodda istehsal edilən 520-530 qramlıq çörək ticarət obyektlərinə 27 qəpiyə verilir.

Onu da əlavə edim ki, elektrik enerjisinin normal təminatı üçün ikitərəfli xətt çəkilmiş və 2 ədəd gücü 100 kilovoltluq transformator quraşdırılmışdır. Elektrik enerjisinin fasiləsiz təminatı üçün əlavə olaraq 2 ədəd generator mövcuddur.

Çörək istehsalı məqsədilə əsas və köməkçi xammalın saxlanılması üçün tutumu 1000 ton olan un anbarı və bişirilən çörəyin təlimata uyğun olaraq müəyyən müddətdə saxlanılması ilə əlaqədar tutumu 10 ton olan hazır məhsul anbarı var. Hazırda zavod təbii qazla işləyir. Bişirilmiş çörək məmulatının hərbi hissələrə və əhaliyə keyfiyyətli halda çatdırılması üçün 12 ədəd xüsusiləşdirilmiş avtomaşın işləyir.

2016-cı ilin yanvar ayına qədər cəmiyyətdə 104 nəfər çalışırdı, fevral ayının 1-dən əlavə olaraq 6 nəfər işə qəbul olunmuşdur. Demək istəyirəm ki, ölkə Prezidentinin ardıcıl surətdə apardığı sənayeləşdirmə siyasətinin nəticəsidir ki, son illər iqtisadiyyatımızın müxtəlif sahələrində yeni, müasir istehsal müəssisələri istifadəyə verilib. “Bərdə – Çörək” ASC də onlardan biridir.

**Azər Vəliyev – “CTS - Aqro” MMC Bərdə pambıq zavodunun direktoru:**

– Ötən əsrin 70-80-ci illərində Bərdə nəinki respublikada, hətta keçmiş sovetlər birliyində ən çox pambıq istehsal edən rayon idi. Ancaq təəssüf ki, 80-ci illərin axırlarında iqtisadi tənəzzül bütün sahələri, o cümlədən pambıqçılığı da əslində iflic vəziyyətinə saldı. Onu da əlavə edim ki, bu acınacaqlı vəziyyət ümummilli lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gələnə qədər davam etdi. Sonra isə xaos və qarşıdurmaya son qoyuldu, bütün sahələrdə intizam yaradıldı, inkişaf və yüksəliş dövrü başlandı.

Təəssüf ki, pambıqçılıq, demək olar ki, yaddan çıxdı. Bunun, əlbəttə, bir çox səbəbləri var. Ən əsası isə odur ki, bu mühüm strateji məhsulun qiyməti hazırda çox aşağıdır. Düzdür, kənd yerlərində pambıqçılığa maraq və həvəs çox güclüdür. Ancaq necə deyərlər, xərci borcunu ödəməyəndə kəndlinin əli işdən soyuyur. Təsəvvür edin ki, bizim zavodun illik istehsal gücü 15 min tondur. Ancaq biz keçən il cəmi 3 min ton pambıq tədarük etmişik.

Ölkə Prezidenti “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində bildirmişdi: “Mənə verilən məlumata görə, indi bir kiloqram pambıq üçün insanlara 42 qəpik ödənilir. Hesab edirəm ki, bu, çox azdır. Bu, əhəmiyyətli dərəcədə artırılmalıdır. Pambıqçılıq sürətlə inkişaf etməlidir”.

Bu gün böyük sevinc hissiylə bildirmək istəyirəm ki, ölkə başçısının bu sözləri kənd yerlərində böyük maraq və inam yaratmışdır. Təsadüfi deyildir ki, son günlər pambıq əkini sahələrini genişləndirmək istəyənlərin sayı artıb. Bunu bizimlə müqavilə bağlayan fermerlərin sayında da görmək olur. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, cari ildə pambıq istehsalını ən azı 7-8 min tona çatdıracağıq.

**Füzuli İsmayılov – “Qarabağ” çörək zavodunun direktoru:**

– Ölkə Prezidenti İlham Əliyevin apardığı iqtisadi siyasət sahibkarlığın təşəkkül tapmasına və cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə xidmət edir. Biz iş adamları öz növbəmizdə respublikada sahibkarlığa göstərilən diqqət və qayğını dərindən dərk edir, dövlət və cəmiyyət qarşısında mənəvi məsuliyyətimizi heç vaxt unutmuruq.

Bizim müəssisənin əsası 1999-cu ildə qoyulmuşdur. O zaman un fabriki işə düşdü və onun sutkalıq istehsal gücü 70 ton idi. Lakin biz bununla işimizi bitmiş hesab etmədik. Çalışırdıq ki, müəssisənin fəaliyyətini genişləndirək, əlavə sahələr yaradaq. Daha doğrusu, sonrakı illərdə yaratdığımız istehsal sahələri bunlardır: ümumi tutumu 10,5 ton olan buğda anbarı, istehsal gücü sutkada 50 ton olan “Qarabağ” çörək zavodu, 60 növ şirniyyat istehsal edən fabrik, kredit ittifaqı... Bütün bunlar bir daha onu göstərir ki, rayonda sahibkarlığı inkişaf etdirmək üçün hər cür şərait yaradılıb. Sadəcə olaraq konkret addım atmaq, təşəbbüs göstərmək, bu diqqət və qayğıya əməli işlə cavab vermək lazımdır.

Hazırda 60 yerlik otel kompleksinin tikintisində də işlər sürətlə davam etdirilir. Qərara gəlmişik ki, oteli bu ilin axırınadək istifadəyə verək.

Daimi işçilərimizin sayı 114 nəfərdir. Mövsümi işlərdə isə daha 50 nəfər qəbul edirik. Ölkə Prezidentinin “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışından sonra isə əlavə olaraq 20 daimi iş yeri açmışıq.

**İkram Ziyadov – “Elkiyar” İstehsal Kommersiya Şirkətinin direktoru:**

– Mən ilk növbədə fürsətdən istifadə edərək sahibkarlığın inkişafına göstərdiyi hərtərəfli qayğıya, geniş fəaliyyət üçün yaratdığı münbit şəraitə görə ölkə Prezidenti İlham Əliyevə sonsuz təşəkkür və minnətdarlığımı bildirirəm. Məlum olduğu kimi, cənab Prezident bitkiçiliyin daha da inkişaf etdirilməsini prioritet istiqamətlərdən biri kimi qarşıya qoymuşdur. Bununla bağlı, son illər əldə etdiyimiz yüksək nəticələr barədə danışmaq istəyirəm.

Hazırda biz 235 hektarda buğda, 150 hektarda arpa, 100 hektarda yonca, 2,5 hektarda soğan, 4 hektarda kələm əkib-becəririk. Məhsuldarlığı isə ildən-ilə artırırıq. Bu, gəlirimizin çoxalmasına, gün-güzəranımızın yaxşılaşmasına gətirib çıxarır.

Onu da əlavə edim ki, son illər biz bitkiçiliklə yanaşı, heyvandarlığın da inkişafına diqqəti artırmışıq. Belə ki, hazırda təsərrüfatımızda 140 baş iri, 685 baş xırda heyvan saxlanılır. Gələcəkdə mal-qaranı xeyli artırmağı qərara almışıq.

Əkin-biçin üçün lazım olan kifayət qədər maşın-mexanizmlərimiz də var. Başqa sözlə desək, yüksək nəticələr əldə etmək, təsərrüfatımızı daha da genişləndirmək üçün hər cür imkan və şəraitə malikik. Daimi işçilərimizin sayı 25 nəfərdir. 15 nəfəri isə mövsümi işlərə cəlb edirik. Daxili imkanlarımızı nəzərə alaraq daha 5 nəfəri işə qəbul etmişik.

**Mətləb Sadiqov – “LVS-sitrus” firmasının direktoru:**

– Bəri başdan ölkə Prezidenti İlham Əliyevə sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğıya görə təşəkkürümü bildirirəm. Onu da əlavə edim ki, biz də öz fəaliyyətimizlə hər zaman ölkə başçısının yanındayıq. Müəssisəmiz bütünlüklə bitkiçilik üzrə inkişaf etdirilir. Belə ki, bir hektar sahədə limon yetişdirilir. Bundan başqa, ildə 70 ton xiyar, 65 ton istiot, 15 ton lobya, 20 ton badımcan, 40 ton kələm götürmüşük.

Divanlı kəndinin ərazisində 25 hektar sahədə taxıl yetişdiririk. Məhsuldarlıq da yüksəkdir. Hər hektardan 45-50 sentner. Demək istəyirəm ki, ildən-idə məhsulumuz da, gəlirimiz də artır. Bu isə xoş güzəran, rahat və firavan həyat deməkdir. Biz bundan sonra da əzmlə çalışacaq, üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcək, ölkəmizdə məhsul bolluğu yaratmaq üçün imkan və səylərimizi səfərbər edəcəyik.

“Dəyirmi masa” arxasında keçirilən bu söhbət, səsləndirilən təklif və qeydlər, mövcud vəziyyəti əks etdirən konkret fakt və rəqəmlər bir daha onu göstərir ki, Bərdədə sahibkarlığın sürətli inkişafı üçün hər cür şərait yaradılmışdır. Belə deməyə tam əsasımız var ki, ölkə Prezidenti İlham Əliyevin gündəlik diqqət və qayğısından ruhlanan Bərdə sahibkarları əldə etdikləri uğurları artıracaq, bundan sonra da ölkəmizin davamlı inkişafına öz layiqli töhfələrini verəcəklər.

***“Dəyirmi masa” arxasında söhbəti qələmə aldı:***
***Ziyəddin SULTANOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***